# QARABAĞ İQTİSADİ RAYONUNDA KƏND TƏSƏRRÜFATININ ƏRAZİ TƏŞKİLİNİN PERSPEKTİVLƏRİ

**N.Ə. Paşayev**
Coğrafiya elmləri doktoru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu
pasayevneriman@mail.ru
**N.B. Abdullazadə**
Doktorant
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu

Məqalə Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatının ərazi təşkilinin perspektivlərinin tədqiqinə həsr edilmişdir. İşğaldan azad edildikdən sonra regionun kənd təsərrüfatında baş verən dəyişikliklərin və bərpa-quruculuq işlərinin davamlılığının araşdırılmasına cəhd göstərilmişdir. Rayona aid olan əsas son 12 ilin statistik materiallarının təhlili əsasında aqrar təsərrüfatın quruluşunu, inkişaf dinamikasını və perspektivlərini əks etdirən müvafiq cədvəllər və xəritələr hazırlanmışdır. Tədqiqat ərazisinin kənd təsərrüfatının ixtisaslaşmış sahələrində baş vermiş dəyişikliklər, onların emal müəssisələrinin müasir inkişaf tendensiyası və perspektivləri araşdırılmışdır. Qarabağ iqtisadi rayonunda respublikada etalon sahə kimi yaşıl və intensiv kənd təsərrüfatın inkişaf etdirilməsi məqsədilə digər inkişaf imkanları da öyrənilmiş və qarşıya çıxan problemlərin düzgün həll edilməsi üçün müvafiq tövsiyələr hazırlanmışdır.

***Açar sözlər**: kənd təsərrüfatı, aqrar sektor, yaşıl kənd təsərrüfatı, bitkiçilik, heyvandarlıq, ixtisaslaşma, emal müəssisələri, ərazi təşkili, davamlı inkişaf.*

Qarabağ iqtisadi rayonunun tərkibinə Xankəndi və Şuşa şəhərləri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd və Tərtər rayonları daxil olmaqla sahəsi 8.99 min kv. km, əhalisi 905 min nəfərdir. Respublika ərazisinin 10,4%-i və əhalisinin 10%-ə qədəri bu regionun payına düşür. Əlverişli təbii iqlim şəraitinə, məhsuldar torpaq sahələrinə,

bol su ehtiyatlarına və mühəndis suvarma imkanlarına malik olan Qarabağ regionunun hazırkı şəraitdə kənd təsərrüfatının yenidən qurulub bərpa edilməsi və davamlı inkişafının, səmərəli ərazi təşkilinin iqtisadi-coğrafi baxımdan tədqiq edilməsi böyük elmi aktuallıq kəsb edir. Bu kontekstdə regionun təbii və iqtisadi imkanlarının aqrar təsərrüfatın səmərəli ərazi təşkilinə təsirinin elmi baxımdan əsaslandırılması və onun emal sahələrinin müasir inkişaf meyllərinin müəyyənləşdirilməsi qarşıda duran əsas perspektivlərdir.

Azərbaycanda istehsal olunan ümumi kənd təsərrüfatı məhsulunun 1113,1 milyon manatı və ya 10,1 %-i Qarabağ iqtisadi rayonunun payına düşür. O cümlədən, regionda istehsal olunan ümumi kənd təsərrüfatı məhsulunda heyvandarlığın payı 556,7 milyon manat və ya 50 %, bitkiçiliyin payı isə 556,5 milyon manat və ya 50% təşkil etmişdir [2].

Azərbaycanda istehsal edilən taxılın 14,3%-i, üzümün 31,5%-i, pambığın 3,3%-i, kartofun 6,3%-i, ətin 14,5%-i, südün 17,1%-i, yumurtanın 3,6%-i, yunun 19,3%-i, baramanın 17,0%-i, iri buynuzlu mal-qaranın 15,8%-i, o cümlədən inək və camışların 14,9%-i, qoyun və keçilərin 19,2%-i, donuzların 38,7%-i işğal olunmuş rayonların payına düşürdü [6].

Qarabağ iqtisadi rayonunun kənd təsərrüfatında taxılçılıq, pambıqçılıq, meyvə və giləmeyvə, üzümçülük, heyvandarlıqda quşçuluq və arıçılıq vaxtilə ixtisaslaşmış sahələr olmuşdur.

Hazırda Qarabağ ərazisi kənd təsərrüfatının inkişafı baxımından əlverişli təbii ehtiyat potensialına malik olduğundan, eləcə də ölkənin və yerli əhalinin ərzaq təhlükəsizliyinin təminatı üçün aqrar sahə mühüm əhəmiyyət daşıdığından, dövlət prioritet sahə kimi kənd təsərrüfatını daima diqqətdə saxlayır. İlk öncə işğaldan azad edilən ərazilər minalardan təmizlənir və sonra həmin yerlərdə torpaqlar əkinə yararlıq səviyyəsinə gətirilir. Regionda yaşıl və intensiv kənd təsərrüfatının müvafiq sahələrinin yenidən qurulub bərpa edilməsi məqsədi ilə dövlət

səviyyəsində investisiya paketi ayrılıb, böyük dəstək göstərilir. Bu kontekstdə böyük qələbədən sonra Qarabağ iqtisadi rayonu ərazisində abadlılıq-quruculuq və bərpa işlərinin yerinə yetirilməsi üçün dövlət büdcəsindən 10 mlrd. manata qədər həcmdə vəsait ayrılmışdır. O cümlədən, 24 noyabr 2020-ci ildə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması”, 27 aprel 2021-ci ildə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların idarə edilməsi ilə bağlı bəzi məsələlər”, 7 iyul 2021-ci ildə “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü” qəbul edilmişdir.




Mənbə: [2]. Azərbaycanın kənd təsərrüfatı. ARDSK. Bakı-2023,709 s.

Şəkil 1. Qarabağ iqtisadi rayonunun kənd təsərrüfatı əkinlərinin və məhsul istehsalının quruluşu

12 avqust 2021-ci ildə "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalma məsələləri", 10 dekabr 2021-ci ildə "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər", 21 iyul 2022-ci ildə "Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi, 16 noyabr 2022-ci ildə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının təsdiq edilməsi", 9 yanvar 2023-cü ildə "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi istiqamətində zəruri dövlət dəstəyinin gücləndirilməsi", 09.01. 2023-cü ildə "Azad edilmiş ərazilərdə kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənabları ardıcıl olaraq bir neçə fərman imzalamışdır [1].

Apardığımız statistik təhlillər nəticəsində regionda taxıl əkinlərinin sahəsi 2010-cu ildə 135,2 min ha, 2020-ci ildə 120 min ha (-11,2 faiz) və 2022-ci ildə 112 min ha (-6,7 faiz), o cümlədən buğda əkinlərinin sahəsinin uyğun olaraq 114,2 min ha, 87,5 min ha (-23,4 faiz) və 74,6 min ha (-14,7 faiz) olması müəyyənləşdirilmişdir [23]. Əkin sahələrindən fərqli olaraq taxıl istehsalında 2020-ci ildə artım, 2022-ci ildə isə azalma tendensiyası davam etmişdir. Belə ki, 2010-cu ildə 270 min ton, 2015-ci ildə 406,2 min ton (+66,5 faiz) 2018-ci ildə 423,6 min ton (+6.5 faiz) və 2020-ci ildə 436,7 min ton (+1 faiz), 410 min ton (6, 1 faiz): o cümlədən buğda istehsalı uyğun olaraq 222,7 min ton, 272 min ton (+18,1 faiz), 323,7 min ton (+19 faiz) və 268,7 min ton (-17 faiz), məhsuldarlıq isə 35,4, 33,8 və 34,8 sent/ha təşkil etmişdir [3].

Cədvəl 1

Qarabağ iqtisadi rayonunun kənd təsərrüfatının əsas əkin göstəriciləri

| Kənd təsərrüfatı bitkilərinin | 2010 | 2020 | 2022 | 2010-2020 | 2020-2022 |
|---|---|---|---|---|---|
| Əkin sahəsi, ha | | | | | |
| Dənlilər və dənli paxlalı bitkilər | 135174 | 120009 | 111867 | -13% | -7% |
| payızlıq və yazlıq buğda | 114184 | 87441 | 74581 | -31% | -17% |
| Pambıq | 5575 | 27106 | 29149 | 486% | 7% |
| Şəkər çuğunduru | 3183 | 1155 | 721 | 276% | -60% |
| Dən üçün günəbaxan | 1494 | 2046 | 2477 | 27% | 17% |
| Kartof | 1878 | 1269 | 1057 | -48% | -20% |
| Tərəvəz | 8304 | 8920 | 7904 | 7% | -13% |
| Bostan bitkiləri | 4486 | 1961 | 2383 | 229% | 18% |
| Bağlar və giləmeyvəliklər | 4164,2 | 6335 | 6671 | 34% | 5% |
| Üzüm bağları | 121,2 | 171 | 168,1 | 29% | -2% |

Mənbə: [3]. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı-2023, 864 səh.

Cədvəl 2

Qarabağ iqtisadi rayonunda kənd təsərrüfatı məhsullarının istehsalı, ton

| Kənd təsərrüfatı bitkilərinin istehsalı, ton | 2010 | 2020 | 2022 | 2010-2020 | 2020-2022 |
|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalı bitkilər | 270074 | 436695 | 409671 | 62% | -7% |
| cümlədən payızlıq və yazlıq buğda | 222729 | 304600 | 268678 | 27% | -13% |
| Pambıq | 9513 | 95765 | 95699 | 10 dəfə | -0,1% |
| Şəkər çuğunduru | 90035 | 50366 | 14858 | -79% | -3,4 dəfə |
| Dən üçün günəbaxan | 2993 | 5305 | 7020 | 44% | 24% |
| Kartof | 22033 | 17160 | 14274 | -28% | -20% |
| Tərəvəz | 101144 | 253224 | 278801 | 250% | 9% |
| Bostan məhsulları | 62530 | 50520 | 62131 | -24% | 19% |
| Meyvə və giləmeyvəlilər | 30068 | 51137 | 54970,6 | 41% | 7% |
| Üzüm | 5171 | 8149 | 7988,5 | 37% | -2% |

Mənbə: [3]. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı-2023, 864 səh.

Regionda son 12 ildə pambıqçılığın inkişafına xüsusi diqqət verilmişdir. Onun nəticəsidir ki, pambıq əkin sahələri 2010-cu ildə 5,6 min ha, 2020-ci ildə 27,1 min hektar (4,8 dəfə); uyğun olaraq pambıq istehsalı isə 9,5 min ton. 95,8 min ton (10 dəfə artmışdır), 2022-ci ildə isə 95,7 min ton (-0,1 faiz) artmaqda davam etmişdir.

Şəkər çuğunduru əkinləri 2010-cu ildə 3183 ha, 2020-ci ildə 1155 ha (-63 faiz) və 2022-ci ildə 721 (-1,6 dəfə) ha; müvafiq olaraq şəkər çuğunduru istehsalı 90,6 min ton, 50,4 min ton (-52,7 faiz) və 15 min ton (-3,5 dəfə); məhsuldarlığı isə hər hektar üçün 354, 361, 481 sent/ha təşkil etməklə azalmışdır [3;5].

Regionda dən üçün günəbaxan əkinlərinin sahəsi 2010-cu ildə 1494, 2046 ha (+19 faiz); dən üçün günəbaxan istehsalı isə uyğun olaraq 2507, 4288 (+73 faiz) və 5305 ton (+28,7 faiz) olması müəyyənləşdirilmişdir.

Regionda tərəvəz, bostan bitkiləri, meyvə və giləmeyvə əkinləri istehsalı və məhsuldarlığının da tədqiqat dövründə artım dinamikası üarə inkişaf etməsi göstərilmişdir. Kartof və üzümün əkinlərinin istehsalının və məhsuldarlığının inkişafında isə müəyyən azalmalar nəzərə çarpsa da, bu qida məhsullarına əhalinin olan tələbatı ödənilir.

Regionda heyvandarlıq üzrə iribuynuzlu mal-qaranın sayı 2020-ci ildə 261 min, 2020-ci ildə 296,2 min baş (+12 faiz); o cümlədən inək və camışların sayı uyğun olaraq 124 min, 137 min (+9,5 faiz) və 2022-ci ildə 147 min baş (+6.8 faiz) olmaqla artım dinamikası üzrə özünü göstərmişdir.

Xırda buynuzlu maldarlıq üzrə qoyun və keçilərin sayı 2020-ci ildə 804 min baş olduğu halda 2020-ci ildə 6,6 faiz azalaraq 751 min baş, 2022-ci ildə isə 3,7 faiz azalaraq 723 min baş təşkil etmişdir. Göründüyü kimi bütün tədqiqat dövründə qoyunçuluq azalma dinamikası üzrə davam etmişdir. Regionda 2010-cu ildə 1403,1min ev quşları qeydə

alınmışdırsa, 2020-ci ildə 19,6 % artımla bu göstərici 1745,6 min baş və 2022-ci ildə isə 1756 min baş (+0,6 faiz)olmuşdur. Regionda maldarlığın digər sahələri ilə əlaqədar arıçılıqda daha yüksək artım tempi müşahidə olunur. Əgər 2010-cu ildə regionda 7,4 min arı ailəsi qeydə alınmışdısa, 2020-ci ildə bu göstərici 4,4 dəfə artaraq 33,1 və 2022-ci ildə 2,7 faiz azalaraq 32,2 min arı ailəsi olmuşdur [3; 5].

Cədvəl 3

Qarabağ iqtisadi rayonunun heyvandarlıq sahələrinin əsas göstəriciləri

| Heyvanların, quşların və arı ailələrinin sayı | 2010 | 2020 | 2022 | 2010-2020 | 2020-2022 |
|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qaranın sayı, baş | 261054 | 296217 | 301617 | 11,9% | 1,8% |
| İnək və camışların sayı, baş | 123646 | 136599 | 146586 | 9,5% | 6,8% |
| Qoyun və keçilər, baş | 804058 | 750733 | 722507 | -7,1% | -3,9% |
| Quşlar, baş | 1403117 | 1745452 | 1759044 | 19,6% | 0,8% |
| Arı ailələri, vahid | 7476 | 33123 | 32215 | 443,1% | -2,8% |

Mənbə: [3]. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı-2023, 864 s.

Cədvəl 4

Qarabağ iqtisadi rayonunda heyvandarlıq məhsullarının əsas göstəriciləri

| Heyvandarlıq məhsullarının istehsalı | 2010 | 2020 | 2022 | 2010-2020 | 2020-2022 |
|---|---|---|---|---|---|
| Ət (kəsilmiş çəkidə), ton | 16544 | 26269 | 27157 | 37% | 3% |
| Süd, ton | 149211 | 311817 | 332638 | 52% | 6% |
| Yumurta, min ədəd | 55569 | 99345 | 101403 | 44% | 2% |
| Yun (fiziki çəkidə), ton | 1845 | 1734 | 1706 | -6% | -2% |

Mənbə: [3]. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı: 2023, 864 s.

Heyvandarlıq məhsullarından ət istehsalı 2010-cu ildə 16,6 min ton, 2020-ci ildə 26,3 min ton (+40 faiz) və 2022-ci ildə 27,2 min ton (3,3 faiz); süd istehsalı 2010-cu ildə 15 min ton, 2020-ci ildə 31,2 min ton (52 faiz) və 2022-ci ildə 33,3 min ton (6,3 faiz); yumurta istehsalı uyğun olaraq 56 milyon, 99,4 milyon (43,7 faiz) və 101,4 milyon ədəd (2,0 faiz)

olmaqla artım dinamikası üzrə, yun (fiziki çəkidə) istehsalı isə azalma dinamikası üzrə inkişaf etmişdir.

Apardığımız tədqiqatlar göstərir ki, Qarabağ iqtisadi rayonunun kənd təsərrüfatı ölkənin digər regionları ilə müqayisədə daha böyük perspektivlərə malikdir. Bu məqsədlə təkcə 2020-ci ildə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) tərəfindən Qarabağ iqtisadi rayonu üzrə üzrə heyvandarlığın inkişafına 5980,7 min manat, əkinçiliyin inkişafı üçün 299,6 min manat məbləğində güzəştli kredit verilmişdir. Bu verilən kreditlərdən heyvandarlıq üzrə Bərdə rayonunun payı 47,4% və ya 2835, 5 min man, Ağcabədi rayonunun payı 25,8% və ya 1545,5 min man, Ağdam rayonunun payı 16,2% və ya 966 min man, Tərtər rayonunun payı 9,0% və ya 538,7 min man, Füzuli rayonunun payı isə 1,6% və ya 95 min manat olmuşdur.

Regonda AKİA tərəfindən əkinçilik üzrə verilmiş kreditlərin payı heyvandarlığa nisbətən 26 dəfə az olub 229,6 min manat təşkil etmişdir. O cümlədən bu sahə üzrə Ağdam rayonunun payı 41,4% və ya 95 min man, Tərtərin payı 27,7% və ya 63,5 min man, Bərdənin payı 15,5% və ya 35,7 min man, Ağcabədinin payı 15,4% və ya 35,4 min manat təşkil etmişdir [4].

Apardığımız təhlilin yekunu kimi aşağıdakı nəticələr əldə olunmuşdur:

- İlk dəfə olaraq Qarabağ iqtisadi rayonunun işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının bərpası və inkişafı ilə bağlı aparılan tədqiqat mərhələsində dayanıqlı inkişafa mənfi təsir göstərən sosial-iqtisadi gərginlik və dağıntılar, texnogen fəlakətlər və uzun illər davam edən silahlı müharibə və qarşıdurmalar nəticəsində torpaqların korlanması və infrastrukturun tamamilə dağılıb sıradan çıxması, aqrar sahədə becərmə-böyütmə, istehsal və istehlak proseslərinin pozulması, bu sahəyə ayrılan investisiyaların azaldılması və ya tamamilə olmaması

kimi kompleks problemlərin yerli və regional ərzaq təhlükəsizliyinə təsirləri müxtəlif aspektlərdən qiymətləndirilmişdir.

- Bütün bunlarla yanaşı regionda kənd təsərrüfatının perspektivləri böyükdür. Belə ki, erməni işğalına qədər ki, dövrdə ( 1985-ci ildə) Qarabağ iqtisadi rayonunda taxıl əkinləri sahəsi müəyyənləşdirilmişdir. 2025-ci ildən sonra regionda taxıl əkinlərinin 100-120 min hektara, istehsalını isə 250-300 min tona çatdırmaq olar. Pambıq əkinlərini 80-100 min ha, onun istehsalını isə 2600 tona qədər; üzümçülüyü hasırki 2022-ci il göstəricilərinə görə 168 hektardan 40 min ha-ya, istehsalını isə 8.0 min tondan 370-400 min tona (1985-ci il sıviyyəsinə) çatdırmaq üçün (vaxtilə təkcə Ağdam və Füzuli rayonlarında ildə 210-220 ton üzüm istehsal olunurdu) 2025-ci ilin perspektivlər yüksəkdir.

- Heyvandarlıq üzrə 1985-ci ildə iribuynuzlu mal-qaranın sayı 293 min baş, xırda buynuzlu mal-qaranın sayının 938 min baş olmuşdursa, 2022-ci ildə bu gıstəricilər uyğun olaraq artım dinamikası üzrə davam etmiş 1985-ci ildəki 293 min başdan 97% artaraq 301,2 başa; xırda buynuzlu maldarlıq isə 165 min baş və ya 17,6 % azalaraq 773 min başa enmişdir. 2025-ci il üçün bu göstəricini 1-1,2 mln. başa çatdırmaq üçün ərazinin iqtisadi imkanları böyükdür.

- Ərazidə kənd təsərrüfatının bərpası nəticəsində gözlənilən istehsal göstəriciləri proqnozlaşdırılmış və problemin inkişaf dinamikasını əks etdirən müvafiq cədvəllər və xəritələr tərtib edilmişdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. https://president.az/
2. Azərbaycanın kənd təsərrüfatı. ARDSK-nin materialları. Bakı: 2023. 709 s.
3. Azərbaycanın regionları, Statistik məcmuə. Bakı: 2023. 864 s.
4. Regionların sosial-iqtisadi inkişafı, Statistik məcmuə. Bakı: 2023.
5. Paşayev N.Ə. Qarabağ və Şərqi Zəngəzurun kənd təsərrüfatı // Qarabağ və Şərqi Zəngəzurun təbii-coğrafi şərait və sosial-iqtisadi inkişaf. Bakı: 2021. s. 437-451.
6. Сельское хозяйство Азербайджанской ССР. Государственный Комитет

Азербайджанской ССР по Статистике. Статистический Сборник, часть II. Баку: 1987, 472 с.

## DEVELOPMENT PERSPECTIVES OF TERRITORIAL ORGANIZATION OF AGRICULTURE IN KARABAKH

The article is devoted to the study of "Development prospects of the territorial organization of agriculture in the Karabakh Economic Karabakh". It tries to study the changes in the agriculture of the area and the continuity of the restoration and construction works in the post-Armenian era, and it nearly succeeds in its aim. Relevant tables and a map reflecting the structure, development dynamics and prospects of agriculture were prepared based on the analysis of the main statistical materials of the last 12 years related to the region. The changes, modern development trends and prospects of their processing enterprises in the specialized agricultural sectors of the research area were studied. In order to develop green and intensive agriculture in the Karabakh economic region as a reference area in the republic, other possibilities of development have also been studied and relevant recommendations have been made for the correct solution of the problems that have arisen.

*Keywords: agriculture, agrarian sector, green agriculture, plant breeding, animal husbandry, specialization, processing enterprises, territorial organization, sustainable development.*